**Aydan Quliyeva**
*ADU-nun dissertantı*

# CÜMLƏNİN AKTUAL ÜZVLƏNMƏSİNİN İFADƏ VASİTƏLƏRİ

**Açar sözlər:** *cümlənin aktual üzvlənməsi, tema, rema, məntiqi vurğu, söz sırası.*
**Key words:** *actual sentence division, theme, rheme, logical stress, word order.*
**Ключевые слова:** *актуальное членение предложения, тема, рема, логическое ударение, порядок слов.*

Nitqin hər iki növündə, yəni həm şifahi, həm də yazılı nitqdə dinləyənə danışan tərəfindən ötürülmüş və ya hər iki ünsiyyət iştirakçısına məlum olan informasiyadan, onun bələd olmadığı, onun üçün yeni olan informasiyaya doğru fikri hərəkət müşayiət edilir. Hər hansı bir cümləni qurarkən danışan (yazan) ünsiyyət predmeti haqqında adresatın məlumat fondunu nəzərə alaraq, ondan asılı olan və ona məlum olan informasiyanı fikrin çıxış punktu hesab edir. Həmsöhbət üçün yeni məlumat ehtiva edən digər hissəni isə birinci hissə haqqında yeni bir məlumat kimi ifadə edir. Belə ki, qeyd edilmiş üzvlənmə aktual və ya kommunikativ üzvlənməni yaradır. Professor K.M.Abdullayev cümlə quruluşunda iki səviyyəni ayıraraq, iki cür üzvlənməni fərqləndirir. Bu üzvlənmədən birini sintaktik üzvlənmə, o biri üzvlənməni isə məntiqi – psixoloji funksional – kommunikativ imkanları nəzərə alan məntiqi – sintaktik üzvlənmə, başqa sözlə desək, aktual üzvlənmə hesab edir [1, 90-91].

Aktual üzvlənmə bir mənalı olaraq cümlənin semantik funksional cəhətdən müxtəlif formada istifadəsi faktını əks etdirir. Bununla yanaşı, o həm də cümlənin strukturu ilə sıx bağlıdır, çünki o cümlənin strukturu vasitəsilə öz ifadəsini tapır. Aktual üzvlənmə ünsiyyətin bütün aspektlərini özündə ehtiva edən mexanizmlərdən biri kimi çıxış edir [5]. Aktual üzvlənmənin mürəkkəb təbiətə malik olması faktı ilə əlaqədar olaraq, ona bir sıra alimlər müxtəlif formada yanaşmışlar. Belə ki, rus alimi V.V.İvanov aktual üzvlənmənin tədqiqində 4 ontoloji paradiqmaya uyğun gələn 4 dövrü fərqləndirmişdir:

**1. Genetik paradiqma** – bu paradiqmə əsasən Q.Qabelenç, Q.Paul və başqa Alman Gənc Qrammatikləri Məktəbinin nümayəndələri cümlə strukturunda sintaktik üzvlənmə ilə bərabər psixoloji üzvlənməni də fərqləndirdilər. Bu nəzəriyyəyə görə psixoloji üzvlənmə cümlənin məna istiqaməti ilə bağlı olur. O sintaktik üzvlənmə ilə müqayisədə ikinci dərəcəli struktur faktoru kimi çıxış edir.

**2. Struktur-sintaktik paradiqma** – bu paradiqma çexoslovak dilçisi, Praqa Dilçilik Məktəbinin banisi, təşkilatçısı, struktur dilçilik nəzəriyyələrini işləyib hazırlamış V.Mateziusun adı ilə bağlıdır. V.Matezius ilk dəfə “cümlənin aktual üzvlənməsi” ifadəsini işlədərək bu nitq fenomeninin adını müəyyən etmişdir. O Alman Gənc Qrammatikləri Məktəbinin nümayəndələrindən fərqli olaraq, sintaktik üzvlənmə ilə yanaşı aktual üzvlənmənin də ünsiyyətdə vacibliyini irəli sürmüşdür.

**3. Fuksional-məna paradiqması** – Bu paradiqmaya görə cümlənin aktual üzvlənməsi iki nəzər nöqtəsinə – kommunikasiya və qavramağa uyğun olaraq fərqləndirilir. Qnoseoloji təfsir düşüncə və dilin bir-biri ilə münasibəti probleminin öyrənilməsi ilə sıx bağlıdır. Buna görə də aktual üzvlənmə burada məntiqi mənanın sinonimi kimi çıxış edir.

**4. Semiotik yanaşma** – Bu yanaşma gənc (yeni) bir yanaşma olub aktual üzvlənmənin nitqin fenomenoloji işarəsi və ya açarı kimi qəbul edilir. Cümlə işarə kimi qəbul edilərək nominativ və predikativ funksiyaların bütünlüklə öyrənilməsinə əsaslanır [6].

Azərbaycan dilində cümlənin aktual üzvlənməsi məsələsi yalnız son 20-30 ildə Ə.Cavadov, Ə.Xəlilov, K.Abdullayev, K.Vəliyev, F.Əlizadə, N.Novruzova, Ə.Abdullayev, Q.Bəyzadə və başqa alimlərin diqqətini cəlb etmiş və bu problemin araşdırılmasına öz tədqiqat işlərində yer vermişlər.

Aktual üzvlənmənin mahiyyətini anlamaq üçün “aktuallaşma” anlayışının ifadə etdiyi mənanı başa düşməliyik. Ş.Balliyə görə, “aktuallaşmadil işarəsinin ünsiyyət zamanı müəyyən mənaya malik olmasıdır”.Belə ki, aktual üzvlənmə kontekstə və ya kommunikativ situasiyaya aid edilir və kommunikativ məqsədə malik olan cümlədə mövcud olur. Cümlənin aktual üzvlənməsində iki komponent fərqləndirilir: *dinləyənə məlum olan və onun bələd olmadığı informasiya.* Belə ki, dilçilikdə aktual üzvlənmə komponentlərinin vahid şəkildə adlandırılması məsələsi hələ də öz həllini tapmamışdır. Dilçilik ədəbiyyatlarında aktual üzvlənmə komponentləri müxtəlif terminlər vasitəsilə adlandırılmışdır: *psixoloji mübtəda-psixoloji xəbər; leksik mübtəda-leksik xəbər; söyləmin əsası və söyləmin nüvəsi; məlum və yeni; tema və rema; əsas hissə və predikativ hissə.* Yuxarıda qeyd edilmiş terminlərdən bir sıra tədqiqat işlərində istifadə olunsa da, “tema” və “rema”dan daha geniş istifadə edilir. O.Yespersen qeyd edir ki, ənənəvi terminləri saxlamaq daha məqbuldur [3, 119]. “Tema” və “rema” terminlərindən istifadə etməyi daha məqsədə uyğun hesab edirik, çünki bu terminlər xarakterinə görə beynəlmiləl səciyyə daşıyır.

“Tema” və “rema” anlayışlarına ilk dəfə olaraq V.Mateziusun 1967-ci ildə çap edilmiş “Cümləyə funksional aspektdən yanaşma” adlı əsərində rast gəlinir. O, bu problemin dilçilik səviyyəsində öyrənilməsinə şərait yaratmış-

dır. Aktual üzvlənmənin tərkib hissələrini təyin etmək üçün alim "əsas" (ilkin punkt) və "nüvə" (özək) terminlərindən istifadə edir [8].Belə ki, dilçilikdə aktual üzvlənmə komponentlərinə müxtəlif cür yanaşıldığından, onlara verilmiş təriflər müxtəlifdir. Rus qrammatikasında "tema – məlumatın predmeti, nə haqqında məlumat verilməsindən bəhs edən hissə"; "rema – tema haqqında dinləyənə naməlum olan məlumatdan bəhs edən cümlənin hissəsi" [7]. M.A.K.Halliday temanı danışan tərəfindən dinləyiciyə ötürülən informasiyanın bərpa oluna bilməsi (məlum olan), remanı isə bərpa oluna bilməyən (yeni) informasiya kimi xarakterizə edərək fərqləndirir [4, 298].

Hər bir dildə cümlənin aktual üzvlənməsinin siqnalizə imkanı verən müxtəlif vasitələr mövcuddur. Həm ingilis, həm də Azərbaycan dilində aktuallaşmanı həyata keçirən müxtəlif rəngarəng vasitələrdən istifadə edilir. Aktual üzvlənmə komponentlərinin ən geniş formada ifadəsi **söz sırası** ilə bağlıdır. Söz sırası bir sıra faktorlardan - dilin quruluşu, onun tipologiyası, qrammatik qaydaları və s. asılı olaraq, cümlə üzvləri arasında qrammatik münasibətləri ("Jack loves Jill" – "Jill loves Jack") ifadə edə bilər; məlumatın fikri mərkəzini ("Jane went to Paris" – "It was Jane who went to Paris"); məlumatın kommunikativ mərkəzini, yəni remanı ("He is ready" – "Is he ready?") müəyyənləşdirə bilər; cümlə üzvləri arasında əlaqə yarada bilər ("He opened the case"). V.Matezius "rema – tema" şəklində ifadə olunmuş cümlələri *subyektiv söz sırası* hesab edir, bu zaman məntiqi vurğu cümlənin əvvəlində və ya ortasında olur: *Seated in a row close to one another were three ladies. There was little sentimentality about the Forsytes* (J. Galsworthy). *Obyektiv söz sırası* ilə qurulmuş cümlələrdə isə "tema – rema" şəklində ifadə olunur.

Remanın cümlənin əvvəldə gəlməsinə bir sıra konstruksiyaların vasitəsilə müşayiət etmək olar: *"it is ... that / who"* ifadələrinin köməyi ilə düzələn cümlələr: *It was Bosinney who first noticed her, and asked her name* (J. Galsworthy); zərfliyinin versiyası ilə müşayiət edilən cümlələr: *Never had there been so full an assembly*…. (J. Galsworthy).Belə ki, cümlənin aktual üzvlənməsində **artiklın** da rolu əvəzsizdir. İngilis dilində remanın leksik və sintaktik göstəriciləri vardır: qeyri-müəyyən və ya sıfır artikl, remanı ifadə edən müxtəlif konstruksiyalar və s. Artiklın köməyi ilə eyni bir cümlə tema və remanın yeri dəyişə bilər: "The book (tema) <u>is on the table</u> (rema)" "<u>A book</u> (rema) was lying on the table (tema)". İngilis dilində əksər cümlələr üçün səciyyəvi olan "Mübtəda–Xəbər–Tamamlıq" strukturuna əsasən tema bir çox hallarda cümlənin mübtədası olur. Amma, məchul növ bu qaydaya uyğun gəlmir.Belə ki, **məchul növ** ilə ifadə olunan cümlədə rema əvvəldə, tema sonda gəlir. "A letter (rema) was written (tema)" (Kitab yazıldı).

Bəzi dillərdə ( yapon) tema əksər hallarda cümlənin sonunda işlənir. Sərbəst söz sırasına malik dillərdə (Azərbaycan, ukrayna) tema cümlənin ortasında da ola bilər [2].

Müəyyən cümlə üzvünün aktuallaşması eyni zamanda müxtəlif **qrammatik** və **leksik elementlərin** köməyi ilə də baş verə bilir. Akademik K.M.Abdullayev bu vasitələri aktuallaşmaya kömək etdiklərinə görə "aktualizator" termini ilə ifadə edir. Alim Azərbaycan dilində aktuallaşmaya yardımçı olan vasitələrə *da*$^2$(Yoldaşım Teymir Mirzə də, deyəsən, mənim günümdə idi (C.Məmmədquluzadə)); *özü (də)* (Sərxan özü pulemyot atəşini başlamadan yoldaşlarına "Atəş" əmrini verdi (M.Hüseyn)), *belə* (Ölümdən belə qorxmurdu (M.Hüseyn)), *reduplikasiya* (cümlə üzvünün təkrarı) (Çoxdandı, lap çoxdandı ki, Kərim kişi içi qoyun dərili bu kürkünü geymirdi (Elçin) aktualizatorlarını aid edir [1].

**Leksik mənaya malik sözlər** də aktual üzvlənmə komponentlərinin, xüsusilə, remanın ifadəsində özünəməxsus rol oynayır. Belə ki, ingilis dilində remanın ifadə vasitələri isə rəngarəngliyi ilə fərqlənir. O leksik mənaya malik olan sözlər - ədatlar (only, even), Azərbaycan dilində isə yalnız, ancaq, məhz, bircə, təkcə ədatları vasitəsilə ifadə oluna bilər: "Only you (rema) can help me (tema)" (Yalnız sən mənə kömək edə bilərsən). Bununla yanaşı, əvəzliklər də aktuallaşmada iştirak edirlər: *Jack (rema) is our friend. He (tema) is an engineer.*

Cümlənin aktual üzvlənməsi təhlilində intonasion **prosodik vasitələr**, xüsusilə, məntiqi vurğunu nəzərə almamaq qeyri-mümkündür [9]. Belə ki, intonasiya cümlədəki söz qruplarına fikri bitkinlik – predikativlik verir. **Məntiqi vurğu** remanın əsas göstəricilərindən biri hesab edilir. Eyni bir cümləyə tema və rema planında müxtəlif cür yanaşıla bilər. Sadə nəqli cümlələrdə adətən, tema əvvəl, rema sonra işlənir; temada ton yuxarı olduğu halda, remada isə məntiqi vurğu ilə nisbətən aşağı tonda tələffüz edilir.

Tabeli mürəkkəb cümlələrin aktual üzvlənməsi də sadə cümlənin aktual üzvlənməsi ilə eynilik təşkil edir. Yəni, burada baş və budaq cümlə ayrı-ayrılıqda üzvlənmir. Onlar bir bütöv kimi çıxış etdiyindən biri tema, digəri isə rema kimi çıxış edir. Belə ki, bu tip mürəkkəb cümlələr iki sadə cümlədən ibarət olur, birinci əsas mövqeyə malik olur, digəri isə köməkçi statusa malik olaraq, ona tabe olur. Semantik və qrammatik strukturu pozmadan onu parçalamaq qeyri-mümkündür:*"He looked as though he were extremely disappointed."*Baş cümlə budaq cümlənin mövqeyini müəyyən etsə də, cümlənin aktual üzvlənməsi onun sintaktik vəziyyətini ifadə edir. Burada söz sırası cümlənin aktual üzvlənməsində mühüm əhəmiyyətə malik olur: "He is called Mitch, because his name is Mitchell" (Onu Miş deyə ça-

ğırırlar, çünki adı Mişeldir). Bu cümlədə baş cümlə temanı, budaq cümlə isə remanı ifadə edir. Əgər cümlədə budaq cümlə əvvəldə, baş cümlə isə ondan sonra gələrsə, tema və remanın yeri dəyişəcək: "As his name is Mitchell, he is called Mitch" cümləsində informasiya rolları dəyişir, bu zaman budaq cümlə-tema, baş cümlə-rema kimi çıxış edir.

Beləliklə, hər bir cümlədə aktual üzvlənmə məsələsi bu cümlənin sintaktik üzvlənməsinin subyekt-predikat üzvlənməsinə uyğun gəlmədiyi zaman yaranır. Hər bir dildə cümlənin aktual üzvlənməsinin siqnalizə imkanı verən müxtəlif vasitələr mövcuddur. Bu vasitələrə *söz sırası, məntiqi vurğunu, intonasiyanı, ədatları, artiklı, hissəcikləri* və s. aid etmək olar. Bu və ya digər vasitənin nitqdə işlənərək aktual üzvlənmənin bir komponentini ifadə etməsi hər bir dilin qrammatik strukturundan asılı olaraq dəyişir. Aktual üzvlənməni bütün dillərə tətbiq etmək olar, amma, bu və ya digər dilin sintaktik tipinə bələd olmaq lazımdır.

**İstifadə olunmuş ədəbiyyat**


1. Abdullayev K.. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1998, 281 s.
2. Bussmann, H. *Routledge dictionary of language and linguistics*; translated and edited by Gregory Trauth and Kerstin Kazzazi. London:Routledge, 1998, 1304 p.
3. Halliday M.A.K. Introduction to Functional Grammar Routledge; 2nd edition, 432 p.
4. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: "Təhsil" nəşriyyatı, 2007, 496 s.
5. Есперсен О. Философия грамматики / перевод с англ., М.: 1958, 400 с.
6. Иванов В. Актуальное членение предложения: на пути к новой парадигме теории. Проблемы и перспективы развития лингвистики, межкультурной коммуникации и лингводидактики. Вып. 3. Сборник научных статей по материалам Международной конференции «История и теория языка. Принципы преподавания иностранных языков». Т. 1. М.: Резонанс, 2009, 200 с.
7. Лингвистический энциклопедический словарь. М.: Советская энциклопедия, 1990, 688 с.
8. Матезиус В. О так называемом актуальном членении предложения // Пражский лингвистический кружок. М. : 1967,с. 240-247.
9. Шевякова В.Е. Актуальное членение предложения.М.: Наука,1976, 136 s.

**Aydan Guliyeva**

**Summary**

**Means of expressing actual sentence division**

The article is dedicated to the problem of the actual division of a sentence. There is no common terminology in linguistics for its constituent parts. The terms "theme" and "rheme" seem to be the most acceptable notions among most linguists. Concepts such as a theme and a rheme, their relationship within the context of a sentence are analysed in the article. Moreover, various means (lexical units, particles, logical stress, word order) used to express its components are depicted in this research paper.

**Айдан Гулиева**

**Резюме**

**Средства выражения актуального членения предложения**

Статья посвящена проблеме актуального членения предложения. В лингвистике нет единой терминологии для его составных частей. В частности лингвистический опыт показывает, что «тема» и «рема» являются наиболее приемлемыми понятиями среди большинства исследователей. В статье рассматривается сущность понятий темы и ремы и их связи в предложении. Кроме того, в работе отражены различные средства (лексические единицы, частицы, логическое ударение, порядок слов), используемые для выражения темы и ремы.

*Rəyçilər: fil.f.d.N.Mədətova, fil.f.d.G.Bağırova*